**Azərbaycan Dövlət İqtisad Universitetinin rektoru**
**cənab Ədalət Muradova**

**Hörmətli Ədalət müəllim,**

Sizi və çoxminli kollektivinizi Azərbaycan iqtisad elminin flaqman ali təhsil ocağı olan Azərbaycan Dövlət İqtisad Universitetinin 90 illik yubileyi münasibətilə səmimi qəlbdən təbrik edirəm!

Ümummilli liderimiz Heydər Əliyev ölkəmizə rəhbərlik etdiyi bütün dövrlərdə elmin və təhsilin inkişafına, müstəqil respublikamızın intellektual potensialının formalaşmasına xüsusi diqqət və qayğı göstərmişdir. Ulu öndərimizin bu siyasəti möhtərəm Prezidentimiz cənab İlham Əliyev tərəfindən layiqincə davam etdirilir. Son illər universitetin maddi-texniki bazasının daha da gücləndirilməsi, yeni tədris binalarının, kitabxana və laboratoriyaların, idman qurğularının beynəlxalq standartlar səviyyəsində tikilib istifadəyə verilməsi bunun bariz nümunəsidir. Sevindirici haldır ki, bu gün elmi tədqiqatların müasir standartlara uyğun aparılması, milli özünüdərk prosesinin sürətləndirilməsi, yüksək ixtisaslı kadrların hazırlanması, dünya təhsil məkanına inteqrasiya istiqamətlərində universitet üzərinə düşən vəzifələrin öhdəsindən layiqincə gəlir.

Zəngin elmi-pedaqoji ənənələrə malik olan və ölkəmizin təhsil sisteminin inkişafına misilsiz töhfələr verən qocaman təhsil ocağının yubileyi münasibətilə Sizi bir daha təbrik edir, doğma Azərbaycanımızın elmi potensialının bütün dünyada tanıdılması və iqtisadçı alimlərin hazırlanması kimi məsuliyyətli və şərəfli fəaliyyətinizdə yeni-yeni nailiyyətlər arzulayıram.

***Hörmətlə,***

***Azərbaycan Respublikasının əmək və əhalinin sosial müdafiəsi naziri Sahil Babayev***